Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

Avropa İttifaqının Azərbaycanın
Lənkəran-Astara İqtisadi
Rayonuna Dəstəyi

## “EU4LANKARAN” LAYİHƏ XƏBƏRİ

İyun 2024

11-ci hissə

# ARTAN UĞURLAR: MASALLI RAYONUNDA YARADILMIŞ YENİ POMİDOR NÜMAYİŞİ SAHƏLƏRİ




*Açılış tədbiri, Masallı rayonu*

Lənkəran-Astara İqtisadi Rayonunun (LAİR) regionlarda nümayiş sahələrinin və meyvə bağlarının salınmasının davamı olaraq, Aİ4Lənkəran layihəsi Masallı rayonunda yeni məhsuldar pomidor sortlarının sınaqdan keçirilməsi üçün pomidor sahələrinin yaradılmasını dəstəkləmişdir. 3 iyul 2024-cü il tarixində Masallı rayonunun Təklə kəndində Pomidor Nümayişi Sahələrinin təqdimat mərasimi keçirilmişdir. Tədbir, artmaqda olan diqqətin kənd təsərrüfatı innovasiyalarına yönəldilməsi ilə, rayonun bütün nöqtələrindən yerli hakimiyyət orqanları, aqrar mütəxəssislər və fermerlər indiqqətini çəkmişdir.



*Pomidor şitilinin əkilməsi üçün praktiki texnika və qabaqcıl təcrübələrin müzakirəsi*

Tədbirdə irəli sürülən təşəbbüsü geniş şəkildə dəstəkləmək məqsədilə Masallı Rayon İcra Hakimiyyətinin və Dövlət Aqrar İnkişaf Mərkəzinin nümayəndələri, kənd təsərrüfatı mütəxəssisləri və yerli fermerlər iştirak etmişlər. Diqqət çəkən məqamlardan biri də toxumçuluq şirkətinin təcrübəli aqronomunun keçirdiyi praktiki təlim oldu. Təlimdə əsas diqqət pomidor şitillərinin əkilməsi və onlara qulluq edilməsinin əsas texnikalarına yönəldilib, fermerlərə məhsuldarlığı və keyfiyyəti maksimum dərəcədə artırmaq üçün zəruri bilik və bacarıqlar aşılanıb. Bu praktiki təlim fermerlər üçün Pomidor Nümayiş Sahələrinin pomidor becərilməsi üzrə qabaqcıl təcrübələr nümunəsi kimi xidmət edəcəyini təmin etməklə birbaşa ekspertdən öyrənmək üçün dəyərli fürsət oldu.

# “EU4LANKARAN” LAYİHƏ XƏBƏRİ

Bu nümayiş sahələrinin yaradılması rayonun kənd təsərrüfatı potensialının artırılması istiqamətində atılan vacib addımdır. 6 kənd - Təklə, Sığıncaq, Şərəfə, Təkdam, Köçəkli və Xıl kəndləri üzrə 8 fermerə ümumi olaraq 49 712 ədəd pomidor tingi paylanılmışdır. “Yusuf”, “Sultan” və “Ulduz” olmaqla, üç yüksək keyfiyyətli beynəlxalq sortun tingləri 1,5 hektar sahədə əkilmişdir. Layihənin məqsədi yerli şəraitə ən uyğun növlərin müəyyən edilməsi, pomidor əkinçiliyində məhsuldarlığın və davamlılığın artırılmasından ibarətdir.

Pomidor Nümayiş Sahələri fermerlərə bir çox üstünlüklər təklif edir, o cümlədən böyümə prosesini müşahidə etmək, müxtəlif pomidor sortlarını müqayisə etmək və ən effektiv becərmə üsullarını mənimsəmək imkanı verir. Bu təşəbbüs yalnız pomidor yetişdirməkdən ibarət deyil, həmçinin fermerlərin dolanışıqlarını artırmaq və regionun iqtisadi inkişafına yardım etmək üçün onları bilik və alətlərlə gücləndirilməkdən ibarətdir.



*Şitil əkiminin paraktiki şəkildə göstərilməsi*

Layihə yalnız pomidor sahələrinin inkişafına deyil, eyni zamanda Masallı rayonunda Pomidor İstehsalçı Qrupunun yaradılmasına fokuslanmışdır. Belə bir qrupun yaradılması vacindir, çünki o, fermerlər üçün daha səmərəli əməkdaşlığa, onların daha böyük bazarlara daxil ola bilməsini artırmağa və danışıqlar aparma qabiliyyətini gücləndirmələrinə imkan yaradır. Onlar birlikdə çalışaraq, xərcləri azalda, ardıcıl məhsul keyfiyyətini təmin edə və daha qabaqcıl əkinçilik metodlarını mənimsəyə bilər. Bu kollektiv yanaşma onların məhsuldarlığı və gəlirlərinin əhəmiyyətli dərəcədə artmasına təkan verər və eyni zamanda regionda kənd təsərrüfatı sektorunun davamlı artımına səbəb olar.



*Əkim üçün hazır pomidor şitili*

Növbəti addımlar olaraq, “EU4Lankaran” layihəsi çərçivəsində pomidorun brendləşdirilməsi və marketinq strategiyasının işlənib hazırlanmasına və bank layihələri üçün potensial sahələrin müəyyən edilməsi istiqamətində təşəbbüslərin həyata keçirilməsi planlaşdırır. Bu səylər yerli məhsullar üçün güclü unikallıq yaratmaq, onların həm daxili, həm də beynəlxalq bazarlarda rəqabətliliyini artırmaq məqsədi daşıyır.

Masallı rayonunda Pomidor Nümayiş Sahələrinin yaradılması yerli kənd təsərrüfatının gələcəyinə mühüm investisiya qoyuluşu deməkdir. Bununla, Avropa İttifaqının və yerli hakimiyyət orqanlarının davamlı kənd təsərrüfatı təcrübələri dəstəklənir, innovasiyalar təşviq edilir və Lənkəran-Astara bölgəsində qarşıya fermerlərin güzəranını yaxşılaşdırmaq öhdəliyi qoyulur.



*Əkilmiş pomidor şitili*

***"Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstəyi" layihəsi haqqında daha çox yeniliklər əldə etmək üçün izləmədə qalın.***

*Bu material Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Məzmun üçün yalnız layihə məsuliyyət daşıyır və Avropa İttifaqının fikirlərini əks etdirmir. Layihə “WeGlobal”ın rəhbərlik etdiyi konsorsium tərəfindən həyata keçirilir.*